AZƏRBAYCAN RESPUBLİKASININ MALİYYƏ BAZARLARINA NƏZARƏT PALATASI

# Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatasının 2018-ci ilin yekunları üzrə maliyyə hesabatı

**Bakı-2019**

# Mündəricat

## Maliyyə hesabatları

Maliyyə vəziyyəti haqqında hesabat ........ 1
Mənfəət və ya zərər və sair məcmu gəlir haqqında hesabat ........ 2
Kapitaldakı dəyişikliklər haqqında hesabat ........ 3
Pul vəsaitlərinin hərəkəti haqqında hesabat ........ 4

## Maliyyə hesabatları üzrə qeydlər

1. Bina və avadanlıqlar ........ 5
2. Qeyri-maddi aktivlər ........ 5
3. Debitor borcları ........ 6
4. Kredit təşkilatından alınacaq məbləğlər ........ 7
5. Pul vəsaitləri və onların ekvivalentləri ........ 7
6. Nizamnamə kapitalı və sair ehtiyatlar ........ 7
7. Alınmış avanslar ........ 7
8. Sair öhdəliklər ........ 7
9. Əsas əməliyyat gəlirləri ........ 8
10. Əməliyyat xərcləri ........ 8
11. Əlaqəli tərəflərlə əməliyyatlar və qalıqlar ........ 8
12. Təəhhüdlər və şərti öhdəliklər ........ 9
13. Maliyyə alətlərinin qiymətləndirmə kateqoriyaları üzrə təqdim edilməsi ........ 9
14. Maliyyə risklərinin idarə edilməsi ........ 10
15. Maliyyə alətlərinin ədalətli dəyəri ........ 13

**Maliyyə vəziyyəti haqqında hesabat**

*Min Azərbaycan manatı ilə*

| | *Qeyd* | *31 dekabr 2018-ci il* | *31 dekabr 2017-ci il* |
|---|---|---|---|
| **Aktivlər** | | | |
| Bina və avadanlıqlar | 1 | 681 | 4,893 |
| Qeyri-maddi aktivlər | 8 | 973 | 997 |
| **Cəmi uzunmüddətli aktivlər** | | **1,654** | **5,890** |
| Debitor borcları | 9 | 2,329 | 1,785 |
| Kredit təşkilatlarından alınacaq məbləğlər | 10 | 8,000 | 5,253 |
| Pul vəsaitləri və onların ekvivalentləri | 11 | 9,306 | 1,660 |
| Sair aktivlər | | 46 | 52 |
| **Cəmi cari aktivlər** | | **19,681** | **8,750** |
| **Cəmi aktivlər** | | **21,335** | **14,640** |
| **Kapital** | | | |
| Nizamnamə kapitalı | 12 | 5,000 | 5,000 |
| Sair ehtiyatlar | 12 | 4,431 | 8,079 |
| Bölüşdürülməmiş mənfəət / (yığılmış zərər) | | 10,838 | 395 |
| **Cəmi capital** | | **20,269** | **13,474** |
| **Öhdəliklər** | | | |
| Alınmış avanslar | 13 | 366 | 348 |
| Sair öhdəliklər | 14 | 463 | 749 |
| Kreditor borcları | | 237 | 69 |
| **Cəmi cari öhdəliklər** | | **1,066** | **1,166** |
| **Cəmi öhdəliklər** | | **1,066** | **1,166** |
| **Cəmi kapital və öhdəliklər** | | **21,335** | **14,640** |

**Mənfəət və ya zərər və sair məcmu gəlir haqqında hesabat**

*Min Azərbaycan manatı ilə*

| | *Qeyd* | *2018* | *2017* |
|---|---|---|---|
| Əsas əməliyyat gəlirləri | 15 | 20,033 | 15,000 |
| Sair gəlirlər | | 748 | 182 |
| **Ümumi gəlir** | | **20,781** | **15,182** |
| Əməliyyat xərcləri | 16 | (10,135) | (10,882) |
| Debitor borcları üzrə dəyərsizləşmə xərci | | (214) | (419) |
| Sair gəlirlər/(xərclər) | | 11 | (4) |
| **İl üzrə mənfəət** | | **10,443** | **3,877** |
| Sair məcmu gəlir | | - | - |
| **İl üzrə cəmi mənfəət** | | **10,443** | **3,877** |

**Kapitaldakı dəyişikliklər haqqında hesabat**

*Min Azərbaycan manatı ilə*

| | *Nizamnamə kapitalı* | *Sair ehtiyatlar* | *Bölüşdürülməmiş mənfəət / (yığılmış zərər)* | *Cəmi Kapital* |
|---|---|---|---|---|
| **1 yanvar 2017-ci il** | **5,000** | **8,079** | **(3,482)** | **9,597** |
| Il üzrə cəmi mənfəət | – | – | 3,877 | **3,877** |
| **31 dekabr 2017-ci il** | **5,000** | **8,079** | **395** | **13,474** |
| Silinmələr | **-** | (3,648) | **-** | **(3,648)** |
| Il üzrə cəmi mənfəət | **-** | **-** | 10,443 | **10,443** |
| **31 dekabr 2018-ci il** | **5,000** | **4,431** | **10,838** | **20,269** |

## Pul vəsaitlərinin hərəkəti haqqında hesabat

*Min Azərbaycan manatı ilə*

| | *Qeyd* | *2018* | *2017* |
|---|---|---|---|
| **Əməliyyat fəaliyyəti üzrə pul vəsaitlərinin hərəkəti** | | | |
| İl üzrə mənfəət | | 10,443 | 3,877 |
| Köhnəlmə və amortizasiya xərcləri | 16 | 1,108 | 1,867 |
| İstifadə edilməmiş məzuniyyət günləri üzrə yaradılan ehtiyat | | (193) | 257 |
| Debitor borclarının dəyərsizləşməsində dəyişiklik | 9 | (214) | 419 |
| *Dövriyyə vəsaitlərində dəyişikliklər* | | | |
| Debitor borclarında azalma | | (330) | (1,977) |
| Sair aktivlərdə azalma | | 6 | (32) |
| Alınmış avanslarda artım/(azalma) | | 18 | (243) |
| Sair öhdəliklərdə azalma/(artım) | | (92) | 234 |
| Kredit borclarında artım | | 168 | 64 |
| **Əməliyyat fəaliyyəti üzrə daxil olan xalis pul vəsaitləri** | | **10,914** | **4,466** |
| | | | |
| **İnvestisiya fəaliyyəti üzrə pul vəsaitlərinin hərəkəti** | | | |
| Bina və avadanlıqların alınması | | (139) | (232) |
| Qeyri-maddi aktivlərin alınması | | (382) | (230) |
| Müddətli əmanətlərin yerləşdirilməsi | | (2,747) | (5,253) |
| **İnvestisiya fəaliyyəti üzrə istifadə olunan xalis pul vəsaitləri** | | **(3,268)** | **(5,715)** |
| | | | |
| **Pul vəsaitləri və onların ekvivalentlərində xalis artım/(azalma)** | | **7,646** | **(1,249)** |
| İlin əvvəlinə pul vəsaitləri və onların ekvivalentləri | | 1,660 | 2,909 |
| **İlin sonuna pul vəsaitləri və onların ekvivalentləri** | 11 | **9,306** | **1,660** |

.

## 1. Bina və avadanlıqlar

Bina və avadanlıqların hərəkəti aşağıdakı kimi olmuşdur:

| | *Binalar* | *Mebel və digər avadanlıqlar* | *Nəqliyyat vasitələri* | *Cəmi* |
|---|---|---|---|---|
| **İlkin dəyər** | | | | |
| **1 yanvar 2017-ci il** | **3,846** | **2,550** | **220** | **6,616** |
| Əlavələr | - | 232 | - | **232** |
| **31 dekabr 2017-ci il** | **3,846** | **2,782** | **220** | **6,848** |
| Əlavələr | - | 139 | - | 139 |
| Silinmələr | (3,846) | (1,409) | (15) | (5,270) |
| **31 dekabr 2018-ci il** | **-** | **1,512** | **205** | **1,717** |
| **Yığılmış köhnəlmə** | | | | |
| **1 yanvar 2017-ci il** | **(98)** | **(609)** | **(33)** | **(740)** |
| Köhnəlmə xərci | (154) | (1,003) | (58) | **(1,215)** |
| **31 dekabr 2017-ci il** | **(252)** | **(1,612)** | **(91)** | **(1,955)** |
| Köhnəlmə xərci | (149) | (543) | (45) | (737) |
| Silinmiş aktivlər üzrə yığılmış köhnəlmə | 401 | 1,240 | 15 | 1,656 |
| **31 dekabr 2018-ci il** | **-** | **(915)** | **(121)** | **(1,036)** |
| **Xalis balans dəyəri** | | | | |
| **1 yanvar 2017-ci il tarixinə** | **3,748** | **1,941** | **187** | **5,876** |
| **31 dekabr 2017-ci il** | **3,594** | **1,170** | **129** | **4,893** |
| **31 dekabr 2018-ci il** | **-** | **597** | **84** | **681** |

## 2. Qeyri-maddi aktivlər

Qeyri-maddi aktivlərin hərəkəti aşağıdakı kimi olmuşdur:

| | *Proqram təminatları* | *Lisenziyalar* | *Cəmi* |
|---|---|---|---|
| **İlkin dəyər** | | | |
| **1 yanvar 2017-ci il** | **1,777** | **50** | **1,827** |
| Əlavələr | 178 | 52 | **230** |
| **31 dekabr 2017-ci il** | **1,955** | **102** | **2,057** |
| Əlavələr | 375 | 7 | **382** |
| Silinmələr | (418) | (20) | **(438)** |
| **31 dekabr 2018-ci il** | **1,912** | **89** | **2,001** |
| **Yığılmış amortizasiya** | | | |
| **1 yanvar 2017-ci il** | **(403)** | **(5)** | **(408)** |
| Amortizasiya xərci | (641) | (11) | **(652)** |
| **31 dekabr 2017-ci il** | **(1,044)** | **(16)** | **(1,060)** |
| Amortizasiya xərci | (356) | (15) | **-371** |
| Silinmiş aktivlər üzrə yığılmış amortizasiya | 394 | 9 | **403** |
| **31 dekabr 2018-ci il** | **(1,006)** | **(22)** | **(1,028)** |
| **Xalis balans dəyəri** | | | |
| **1 yanvar 2017-ci il** | **1,374** | **45** | **1,419** |
| **31 dekabr 2017-ci il** | **911** | **86** | **997** |
| **31 dekabr 2018-ci il** | **906** | **67** | **973** |

## 3. Debitor borcları

Debitor borcları aşağıdakılardan ibarət olmuşdur:

| | *2018* | *2017* |
|---|---|---|
| Debitor borcları | 2,775 | 2,017 |
| Çıxılsın: kredit zərəri üzrə ehtiyat | (446) | (232) |
| **Cəmi debitor borcları** | **2,329** | **1,785** |

31 dekabr 2018-ci il tarixinə debitor borclara 40 kredit təşkilatı, 20 sığorta şirkəti və 7 investisiya şirkətindən (31 dekabr 2017: 67 kredit təşkilatı, 21 sığorta şirkəti və 6 investisiya şirkəti) alınacaq cəmi 2,096 AZN (31 dekabr 2017: 1,785 AZN) məbləğ daxildir.

Hesabat dövrünün əvvəli və sonu arasındakı müddətdə sadələşdirilmiş ECL modelinə əsasən debitor borcları üzrə kredit zərərləri üçün ehtiyatda dəyişikliklər aşağıdakı cədvəldə göstərilir:

| | **Kredit zərərləri üzrə ehtiyat** |
|---|---|
| **31 dekabr - BMS 39-a uyğun hesablanmış** | **(232)** |
| Dövrün əvvəlinə bölüşdürülməmiş mənfəətə düzəliş edilmiş məbləğlər | - |
| **1 yanvar 2018-ci il tarixinə qalıq - BMHS 9-a uyğun hesablanmış** | **(232)** |
| İl ərzində mənfəət və ya zərərdə tanınmış kredit zərərləri üzrə ehtiyatda azalma | (214) |
| **31 dekabr 2018-ci il tarixinə qalıq** | **(446)** |

2017-ci il ərzində debitor borcların dəyərsizləşməsi üzrə ehtiyatın hərəkəti aşağıdakı kimi olmuşdur

| | *2017* |
|---|---|
| **1 yanvar tarixində** | – |
| İl ərzində ümidsiz borclar kimi silinmiş debitor borcları | (187) |
| Ehtiyatda xalis dəyişiklik | 419 |
| **31 dekabr tarixində** | **232** |

31 dekabr 2018-ci il tarixinə fərdi şəkildə qiymətləndirilmiş 5 debitor (31 dekabr 2017: 4 debitor) üzrə ümumi məbləği 446 AZN (31 dekabr 2017: 474 AZN) borclara müvafiq olaraq cəmi məbləği 446 AZN olan ehtiyat yaradılmışdır (31 dekabr 2017: 129 AZN).

Palata gözlənilən kredit zərərlərinin qiymətləndirilməsi üçün BMHS 9-da nəzərdə tutulan sadələşdirilmiş yanaşma tətbiq edir. Bu yanaşma bütün ticarət və digər debitor borcları üçün bütöv müddət üzrə gözlənilən kredit zərərləri ehtiyatını istifadə edir.

Gözlənilən kredit zərərlərinin qiymətləndirilməsi üçün ticarət və digər debitor borcları kredit riskinin ümumi xüsusiyyətlərinə və vaxtı keçmiş günlərin sayına əsasən qruplaşdırılmışdır.

Gözlənilən kredit zərərlərinin səviyyəsi 31 dekabr 2018-ci il tarixinə qədər 32 ay ərzində həyata keçirilən satışlar üzrə ödəniş cədvəllərinə və bu dövr ərzində yaranmış əvvəlki dövrün kredit zərərlərinə əsaslanır. Əvvəlki dövrlər üçün kredit zərərlərinin səviyyəsinə müştərilərin debitor borclarını qaytarmaq imkanına təsir edən makroiqtisadi amillərə dair mövcud və proqnoz məlumatları nəzərə alaraq düzəliş edilir. Palata xidmət göstərdiyi ölkədə ÜDM-ni və işsizlik səviyyəsini ən uyğun amillər kimi müəyyən etmiş və bu amillərdə gözlənilən dəyişikliklərə əsasən əvvəlki dövrlər üzrə zərər səviyyələrinə müvafiq düzəlişlər etmişdir.

## 4. Kredit təşkilatından alınacaq məbləğlər

31 dekabr 2018-ci il tarixinə kredit təşkilatından alınacaq məbləğlərə bir rezident bankda yerləşdirilmiş (31 dekabr 2017: iki rezident bank) və müddəti bitmə tarixi 9 yanvar 2018 – 22 may 2019-cu il olan səkkiz müddətli əmanət daxildir (31 dekabr 2017: 14 yanvar 2018 – 8 dekabr 2018-ci il olan dörd müddətli əmanət).

Gözlənilən kredit zərərlərinin qiymətləndirilməsi məqsədilə kredit təşkilatından alınacağ məbləğ 1-ci Mərhələyə daxil edilmişdir. Bu qalıqlar üzrə gözlənilən kredit zərərlərinin məbləği əhəmiyyətsiz olduğuna görə Palata kredit təşkilatından alınacağ məbləği üçün kredit zərərləri üzrə ehtiyat yaratmamışdır.

## 5. Pul vəsaitləri və onların ekvivalentləri

Pul vəsaitləri və onların ekvivalentləri aşağıdakılardan ibarətdir:

| | *2018* | *2017* |
|---|---|---|
| Kassada olan pul vəsaitləri | 2 | 7 |
| Bank hesabları | 9,304 | 1,203 |
| Kredit təşkilatlarında müddəti 90 günədək olan müddətli depozitlər | - | 450 |
| **Cəmi pul vəsaitləri və onların ekvivalentləri** | **9,306** | **1,660** |

Gözlənilən kredit zərərlərinin qiymətləndirilməsi məqsədilə pul vəsaitləri və onların ekvivalentləri 1-ci Mərhələyə daxil edilmişdir. Bu qalıqlar üzrə gözlənilən kredit zərərlərinin məbləği əhəmiyyətsiz olduğuna görə Palata pul vəsaitləri və onların ekvivalentləri üçün kredit zərərləri üzrə ehtiyat yaratmamışdır

## 6. Nizamnamə kapitalı və sair ehtiyatlar

Palatanın nizamnamə kapitalı Azərbaycan Respublikası Maliyyə Nazirliyi tərəfindən yatırılmış və 5,000 AZN təşkil edir.

Sair ehtiyatlar ləğv edilmiş AR Maliyyə Nazirliyi Dövlət Sığorta Nəzarəti Xidmətinin, AR Dövlət Qiymətli Kağızlar Komitəsinin və AR Mərkəzi Bankı yanında Maliyyə Monitorinqi Xidmətinin ləğvetmə prosesinin başa çatdırılması nəticəsində Palataya istifadəyə təhvil verilmiş avadanlıqlardan və qeyri-maddi aktivlərdən ibarətdir. Bunlara nəqliyyat vasitələri, mebel və digər avadanlıqlar və qeyri-maddi aktivlər daxildir. (31 dekabr 2017: inzibati bina, nəqliyyat vasitələri, mebel və digər avadanlıqlar və qeyri-maddi aktivlər).

2018-ci il ərzində xalis qalıq dəyəri 3,648 AZN olan inzibati bina, mebel, digər avadanlıqlar və qeyri-maddi aktivlər AR Maliyyə Monitorinqi Xidmətinə ötürülmüşdür.

## 7. Alınmış avanslar

31 dekabr 2018-ci il tarixinə alınmış avanslara 86 (31 dekabr 2017: 60) kredit təşkilatından 366 AZN (31 dekabr 2017: 348 AZN) məbləğində daxilolmalar aiddir.

## 8. Sair öhdəliklər

31 dekabr 2018-ci il tarixinə sair öhdəliklərə istifadə edilməmiş məzuniyyət günləri üzrə 192 AZN (31 dekabr 2017: 515 AZN) məbləğində hesablanmış ehtiyat və sair məbləğlər üzrə 270 AZN (31 dekabr 2017: 234 AZN) öhdəlik daxildir.

## 9. Əsas əməliyyat gəlirləri

Əsas əməliyyat gəlirləri aşağıdakılardan ibarətdir:

| | 2018 | 2017 |
|---|---|---|
| Kredit təşkilatları üzrə ödənişlər | 15,320 | 10,609 |
| Sığorta və təkrarsığorta şirkətləri üzrə ödənişlər | 4,102 | 3,001 |
| Mərkəzləşdirilmiş kredit reyestri üzrə ödənişlər | 288 | 1,250 |
| Digər ödənişlər | 323 | 140 |
| **Cəmi əsas əməliyyat gəlirləri** | **20,033** | **15,000** |

## 10. Əməliyyat xərcləri

Əməliyyat xərcləri aşağıdakılardan ibarətdir:

| | 2018 | 2017 |
|---|---|---|
| İşçi heyəti üzrə xərclər | 7,420 | 8,061 |
| Köhnəlmə və amortizasiya xərcləri | 1,109 | 1,867 |
| Mühafizə xərcləri | 130 | 128 |
| İT xərcləri | 87 | 86 |
| Ezamiyyə xərcləri | 137 | 135 |
| Ofis xərcləri | 77 | 146 |
| Rabitə xərcləri | 46 | 58 |
| İcarə xərcləri | 40 | 57 |
| Sair əməliyyat xərcləri | 1,089 | 344 |
| **Cəmi əməliyyat xərcləri** | **10,135** | **10,882** |

## 11. Əlaqəli tərəflərlə əməliyyatlar və qalıqlar

Tərəflər o zaman əlaqəli hesab olunur ki, onlar ümumi nəzarət altında olsun və ya onlardan biri digərinə nəzarət etmək imkanına malik olsun və yaxud maliyyə-təsərrüfat fəaliyyəti ilə bağlı məsələlərə dair qərar qəbul edərkən digər tərəfə əhəmiyyətli təsir göstərə bilsin və ya ona birgə nəzarət etsin. Əlaqəli tərəflər ilə hər hansı mümkün münasibətlər nəzərdən keçirilərkən, iqtisadi mahiyyətin hüquqi formadan üstünlüyü prinsipi tətbiq olunur.

### Əsas idarəedici heyətə ödənişlər

Palatanın əsas idarəedici heyətinə ləğv edilmiş Direktorlar Şurası və İdarə Heyəti üzvləri daxildir. 2018-ci il ərzində əsas idarəedici heyətə ödənişlər 419 AZN (2017: 2,079 AZN) təşkil etmişdir.

Əlaqəli tərəflərlə əməliyyatlar üzrə qalıqlar aşağıdakı kimi olmuşdur:

| | 2018 | 2017 |
|---|---|---|
| Pul vəsaitləri və onların ekvivalentləri | 3,264 | 30 |
| Kredit təşkilatından alınacaq məbləğlər | - | 3,000 |
| Debitor borcları | 347 | 228 |
| Sair öhdəliklər | 8 | 594 |
| Alınmış avanslar | 8 | 5 |

Əlaqəli tərəflərlə əməliyyatlardan yaranan gəlirlər və xərclər aşağıdakı kimi olmuşdur:

| | 2018 | 2017 |
|---|---|---|
| Əsas əməliyyat ilə bağlı gəlirlər | 2,186 | 1,798 |
| Vergi və digər məcburi ödənişlər | 1,969 | 1,246 |
| Əməliyyat xərcləri ilə bağlı ödənişlər | 219 | 257 |

## 12. Təəhhüdlər və şərti öhdəliklər

### Maliyyə təəhhüdləri və şərti öhdəliklər

Palata tərəfindən 31 dekabr 2018-ci il tarixində tamamlanan dövr üzrə heç bir maliyyə zəmanəti verilməmişdir. Həmçinin Palatanın kapital xərcləri ilə bağlı öhdəlikləri olmamışdır.

### Sığorta

Palata öz əmlakı və əməliyyatları ilə əlaqədar bədbəxt hadisələrin baş verməsi nəticəsində mülki və ətraf mühitə ziyanın dəyməsi ilə əlaqədar bina və avadanlıqları, fəaliyyətin dayanması və ya üçüncü tərəflər qarşısında öhdəliklərini tam sığortalamamışdır. Palata adekvat sığorta təminatı əldə edənə qədər müəyyən aktivlərə zərər dəyməsi və ya məhv edilməsinin əməliyyatlar və maliyyə vəziyyəti üzərində əhəmiyyətli dərəcədə əks təsirə malik olması riski öz aktuallığını saxlayır.

### Hüquqi məsələlər

Adi fəaliyyətində Palata məhkəmə iddiaları və şikayətlərinin obyekti olur. Rəhbərlik hesab edir ki, belə iddia və ya şikayətlərdən irəli gələn öhdəlik (əgər olarsa) Palatanın maliyyə vəziyyəti və ya gələcək əməliyyat nəticələrinə əhəmiyyətli mənfi təsir göstərməyəcəkdir.

## 13. Maliyyə alətlərinin qiymətləndirmə kateqoriyaları üzrə təqdim edilməsi

BMHS 9 "Maliyyə alətləri" standartına uyğun olaraq, Palata maliyyə aktivlərini aşağıdakı kateqoriyalara təsnifləşdirir: (a) FVTPL kateqoriyasında qiymətləndirilən maliyyə aktivləri; (b) FVOCI kateqoriyasında qiymətləndirilən borc alətləri; (c) FVOCI kateqoriyasında qiymətləndirilən pay alətləri və (d) amortizasiya olunmuş dəyərlə qiymətləndirilən maliyyə aktivləri. FVTPL kateqoriyasında qiymətləndirilən maliyyə aktivləri iki alt-kateqoriyaya bölünür: (i) FVTPL kateqoriyasında məcburi qaydada qiymətləndirilən aktivlər və (ii) ilkin tanınma zamanı həmin kateqoriyaya aid edilmiş aktivlər.

31 dekabr 2018-ci il tarixinə maliyyə aktivlərinin növləri ilə yuxarıda qeyd edilən qiymətləndirmə kateqoriyalarının üzləşdirilməsi aşağıdakı cədvəldə göstərilir:

| | *2018* |
|---|---|
| **Aktivlər** | |
| ***Pul vəsaitləri və onların ekvivalentləri*** | |
| - Kassada olan pul vəsaitləri | 2 |
| - Tələb edilənədək bank qalıqları | 9,304 |
| ***Kredit təşkilatından alınacaq məbləğlər*** | |
| - Kredit təşkilatlarında müddətli depozitlər | 8,000 |
| ***Debitor borcları*** | |
| - Debitor borcları | 2,096 |
| **Cəmi maliyyə aktivləri** | **19,402** |

2018-ci il ərzində Palatanın bütün maliyyə öhdəlikləri amortizasiya olunmuş dəyərlə qeydə alınmışdır.

BMS 39 "Maliyyə Alətləri: Tanınması və Qiymətləndirilməsi" Standartına uyğun olaraq Palata maliyyə aktivlərini aşağıdakı kateqoriyalara təsnifləşdirir: (a) kreditlər və debitor borcları; (b) satıla bilən maliyyə aktivləri; (c) ödəniş tarixinədək saxlanılan maliyyə aktivləri və (d) FVTPL kateqoriyasında qiymətləndirilən maliyyə aktivləri. FVTPL kateqoriyasında qiymətləndirilən maliyyə aktivləri iki alt-kateqoriyaya bölünür: (i) ilkin tanınma zamanı bu kateqoriyaya aid edilmiş aktivlər və (ii) ticarət üçün maliyyə aktivləri. 31 dekabr 2017-ci il tarixinə maliyyə aktivlərinin növləri ilə yuxarıda qeyd edilən qiymətləndirmə kateqoriyalarının üzləşməsi aşağıdakı cədvəldə göstərilir:

| | *2017* |
|---|---|
| **Aktivlər** | |
| ***Pul vəsaitləri və onların ekvivalentləri*** | |
| - Kassa | 7 |
| - Tələb edilənədək bank qalıqları | 1,203 |
| - Kredit təşkilatlarında müddəti 90 günədək olan müddətli depozitlər | 450 |
| ***Kredit təşkilatından alınacaq məbləğlər*** | |

| | 2017 |
|---|---|
| - Kredit təşkilatlarında müddətli depozitlər | 5,253 |
| ***Debitor borcları*** | |
| - Debitor borcları | 1,785 |
| **Cəmi maliyyə aktivləri** | **8,698** |

## 14. Maliyyə risklərinin idarə edilməsi

Palata daxilində risklərin idarə edilməsi funksiyası maliyyə riskləri, əməliyyat və hüquqi risklər ilə əlaqədar həyata keçirilir. Maliyyə risklərinə bazar riski (o cümlədən xarici valyuta riski, faiz dərəcəsi riski və digər qiymət riskləri), kredit riski və likvidlik riski daxildir. Maliyyə risklərinin idarə edilməsi funksiyasının əsas məqsədi risk limitlərinin müəyyən edilməsi və bu limitlərə riayət edilməsidir. Əməliyyat və hüquqi risklərin idarə edilməsində məqsəd bu risklərin azaldılması üçün nəzərdə tutulan daxili qayda və prosedurlara müvafiq qaydada riayət edilməsini təmin etməkdən ibarətdir.

### Bazar riski

Palata bazardakı ümumi və spesifik dəyişikliklərə məruz qalan (a) xarici valyuta (b) faiz hesablanan aktiv və öhdəliklər və (c) pay alətləri üzrə açıq mövqelər ilə əlaqədar bazar risklərinə məruz qalır. Aşağıda göstərilən bazar risklərinə həssaslıq bütün digər amillər sabit qalmaqla, hər hansı amildə baş vermiş dəyişikliyə əsaslanır. Praktikada bunun baş verməsi ehtimalı azdır və bəzi amillərdə (məsələn, faiz dərəcəsi və valyuta məzənnələrindəki dəyişikliklər) baş verən dəyişikliklərin bir-biri ilə müəyyən əlaqəsi ola bilər.

### Xarici valyuta riski

31 dekabr 2018-ci il tarixinə Palatanın müvafiq olaraq 19,402 AZN (2017-cı il: 8,698 AZN) və 237 AZN (2017-cı il: 69 AZN) məbləğində olan maliyyə aktivləri və öhdəlikləri manatda olmuşdur.

### Faiz dərəcəsi riski

Faiz dərəcəsi riski maliyyə aktivlərinin ədalətli dəyərinin və ya gələcək pul vəsaitləri hərəkətlərinin faiz dərəcəsinin artması/azalması nəticəsində ucuzlaşması/bahalaşması riskidir.

Palatanın dəyişən faiz dərəcəsi ilə alətləri olmadığına görə Palata pul vəsaitlərinin hərəkəti ilə bağlı faiz riskinə məruz qalmır, faiz dərəcəsindəki dəyişikliklər də Palatanın kapitalına təsir göstərmir.

### Kredit riski

Maliyyə aləti üzrə bir tərəf öz öhdəliyini yerinə yetirə bilməməsi nəticəsində digər tərəfə maliyyə zərəri vurduqda, Palata kredit riskinə məruz qalır. Kredit riski Palatanın maliyyə aktivlərinin yaranmasına səbəb olan qarşı tərəflərlə aparılan əməliyyatlar nəticəsində yaranır.

Kredit riski pul vəsaitləri və onların ekvivalentləri, eləcə də debitor borclar ilə əlaqədar yaranır.

Aktivlərin növləri üzrə Palatanın məruz qaldığı risklərin maksimum miqdarı aşağıdakı cədvəldə göstərilir:

| | Qeyd | 2018 | 2017 |
|---|---|---|---|
| Pul vəsaitləri və onların ekvivalentləri | 11 | 9,304 | 1,653 |
| Kredit təşkilatlarından alınacaq məbləğlər | 10 | 8,000 | 5,253 |
| Debitor borcları | 9 | 2,775 | 2,017 |
| **Cəmi kredit riskinin maksimim səviyyəsi** | | **20,079** | **8,473** |

**Maliyyə aktivlərinin siniflər üzrə kredit keyfiyyəti**

Palata maliyyə aktivləri üzrə kredit riskinin həcmini bu riskləri Palatanın qarşı tərəflərinin kredit reytinqlərinə və mövcud olanda beynəlxalq reytinq agentliklərinin reytinqlərinə uyğun olaraq təsnif etməklə müəyyən edir. Palata maliyyə aktivlərini aşağıdakı kimi təsnif edir:

- Yüksək reytinqli – bura yüksək maliyyə nəticələri olan və az ehtimal edilən kredit zərəri ilə səciyyələnən biznes tərəfdaşları aid edilir.
- Standart reytinqli – bura maliyyə vəziyyəti stabil qiymətləndirilən və normal ödəmə qabiliyyəti ilə səciyyələnən biznes tərəfdaşları aid edilir.
- Qənaətbəxş reytinqli – bura maliyyə vəziyyəti qənaətbəxş qiymətləndirilən və orta keyfiyyətli ödəmə qabiliyyəti və kredit zərərinin mümkünlüyü ilə səciyyələnən biznes tərəfdaşları aid edilir.
- Xüsusi monitorinq tələb edilən reytinqli – bura daha ətraflı monitorinq və bərpaedici idarəetmə tələb edən biznes tərəfdaşları aid edilir
- Defolt səviyyə – defolt hadisəsi baş vermis kreditləşdirmə mexanizmləri.

## Maliyyə risklərinin idarə edilməsi (davamı)

Palatanın aktivlərin növləri üzrə məruz qaldığı kredit riskinin maksimal səviyyəsi aşağıda təqdim edilir:

| *31 dekabr 2018-ci il* | *Yüksək reytinq* | *Standart reytinq* | *Qənaətbəxş reytinq* | *Xüsusi monitorinq tələb edilən* | *Defolt* | *Cəmi* |
|---|---|---|---|---|---|---|
| Pul vəsaitləri və onların ekvivalentləri | – | 9,304 | – | – | – | **9,304** |
| Kredit təşkilatlarından alınacaq məbləğlər | – | 8,000 | – | – | – | **8,000** |
| Debitor borcları | – | 2,329 | – | – | 446 | **2,775** |
| **Cəmi** | – | **19,633** | – | – | **446** | **20,079** |

| *31 dekabr 2017-ci il* | *Vaxtı keçməmiş və dəyərsizləşməmiş* | | | *Vaxtı* | *Fərdi* | |
|---|---|---|---|---|---|---|
| | *Yüksək reytinq* | *Standart reytinq* | *Qeyri-standart reytinq* | *keçmiş, lakin dəyərsiz-ləşməmiş* | *dəyərsiz-ləşmiş* | *Cəmi* |
| Pul vəsaitləri və onların ekvivalentləri | – | 1,660 | – | – | – | **1,660** |
| Kredit təşkilatlarından alınacaq məbləğlər | – | 5,253 | – | – | – | **5,253** |
| Debitor borcları | – | 1,170 | – | 373 | 474 | **2,017** |
| **Cəmi** | – | **8,083** | – | **373** | **474** | **8,930** |

***Maliyyə aktivləri üzrə ECL.*** Palatanın debitor borcları yalnız xidmətlərin göstərilməsindən yarandığına görə gözlənilən kredit zərərləri modelinə məruz qalır.

BMHS 9-un dəyərsizləşmə ilə bağlı tələbləri pul vəsaitləri və onların ekvivalentlərinə də şamil olunsa da, müəyyən edilmiş dəyərsizləşmə zərərinin həcmi əhəmiyyətsiz olmuşdur.

***Debitor borcları.*** Palata gözlənilən kredit zərərlərinin qiymətləndirilməsi üçün BMHS 9-da nəzərdə tutulan sadələşdirilmiş yanaşmanı tətbiq edir. Bu yanaşma bütün debitor borcları üçün bütöv müddət üzrə gözlənilən kredit zərərləri ehtiyatını istifadə edir.

Gözlənilən kredit zərərlərinin qiymətləndirilməsi üçün debitor borclar kredit riskinin ümumi xüsusiyyətlərinə və vaxtı keçmiş günlərin sayına görə qruplaşdırılmışdır. Bu səbəbdən, Palata debitor borcları üzrə gözlənilən kredit zərərlərinin səviyyəsinin müqavilə aktivləri üzrə gözlənilən kredit

zərərlərinin səviyyəsi üçün kifayət qədər əsaslandırılmış qiymətləndirmə olduğu qənaətinə gəlmişdir.

Gözlənilən kredit zərərlərinin səviyyəsi 31 dekabr 2018-ci il tarixinə qədər 32 ay ərzində həyata keçirilən ödəniş cədvəllərinə və bu dövr ərzində yaranmış əvvəlki dövrün kredit zərərlərinə əsaslanır. Əvvəlki dövrlər üçün kredit zərərlərinin səviyyəsinə subyektlərin debitor borclarını qaytarmaq imkanına təsir edən makroiqtisadi amillərə dair mövcud və proqnoz məlumatları nəzərə alaraq düzəliş edilir.

Debitor borclarının bərpasına dair əsaslandırılmış gözləntilərin olmadığı təqdirdə, belə debitor borcları silinir. Debitor borclarının bərpasına dair əsaslandırılmış gözləntilərə digər məsələlərlə yanaşı, debitorun Palata ilə razılaşdırılmış ödəniş cədvəlinə riayət edə bilməməsi və subyektin müflis elan edilməsi daxildir.

Debitor borcları üzrə dəyərsizləşmə zərərləri əməliyyat mənfəətinin tərkbində xalis dəyərsizləşmə zərəri kimi göstərilir. Əvvəllər silinmiş məbləğlərin sonradan bərpası da eyni sətir maddəsində göstərilir.

Ümumiyyətlə, gözlənilən kredit zərərləri (ECL) aşağıdakı kredit riski parametrlərinin hasilinə bərabərdir: effektiv faiz dərəcəsindən istifadə etməklə cari dəyərə diskontlaşdırılan defolta məruz qalan dəyər (EAD), defolt ehtimalı (PD) və defolt baş verəcəyi halda itirilməsi gözlənilən məbləğ (LGD). ECL hər bir fərdi maliyyə aktivinin bütöv müddəti ərzində hər bir növbəti il üçün kredit riski parametrlərini proqnozlaşdırmaqla müəyyən edilir.

EAD - hesabat dövründən sonra maliyyə aktivinin məbləğində gözlənilən dəyişiklikləri, o cümlədən əsas borc və faizlərin ödənilməsi və kredit öhdəlikləri üzrə vəsaitlərin gözlənilən istifadəsini nəzərə alaraq, gələcək defolt tarixində maliyyə aktivinin qiymətləndirilməsidir.

**Maliyyə risklərinin idarə edilməsi (davamı)**

PD - müəyyən müddət ərzində defoltun baş vermə ehtimalının qiymətləndirilməsidir.

LGD - defolt baş verdiyi zaman yaranan zərərin qiymətləndirilməsidir. Bu, müqavilə üzrə ödənilməli gələcək nağd pul axınları ilə kreditorun gözlənilən nağd pul axınları arasındakı fərqə əsaslanır. Adətən bu göstərici EAD-nin faiz nisbəti kimi ifadə edilir. Gözlənilən zərərlər hesabat dövrünün sonunda cari dəyərə diskontlaşdırılır.

Bu üç komponentin hasili tapılır və bərpa ehtimalını (yəni, maliyyə aktivinin əvvəlki ayda ödənilməsi və ya defolt olması) nəzərə alaraq onlara düzəliş edilir. Bu, hər bir gələcək dövr üçün ECL-in hesablanmasını effektiv şəkildə təmin edir və sonradan hesabat tarixinə geri diskontlaşdırılıraq toplanır. ECL-in hesablanması üçün istifadə edilən diskont dərəcəsi ilkin effektiv faiz dərəcəsi və ya onun təxmini dəyəridir.

***Kənar reytinqlər əsasında qiymətləndirmə prinsipləri.*** Bəzi maliyyə alətlərində müvafiq reytinq agentlikləri tərəfindən dərc edilmiş defolt və vəsaitlərin bərpası statistikası əsasında PD və LGD kimi kredit riski parametrlərini qiymətləndirmək üçün istifadə olunan xarici kredit riski reytinqləri mövcuddur.

***ECL modellərinə daxil edilmiş proqnoz məlumatları.*** ECL-in qiymətləndirilməsi üçün miqrasiya matrisindən istifadə edildikdə proqnoz məlumatları artıq təyin olunmuş kənar reytinqə daxildir.

**Likvidlik riski**

Likvidlik riski maliyyə öhdəliklərinin yerinə yetirilməsində Palatanın çətinliklərlə üzləşəcəyi riskdir. Palata gözlənilməyən likvidlik tələblərini tez bir zamanda və asanlıqla yerinə yetirmək üçün vəsaitləri pul vəsailtəri və onların ekvivalentləri şəklində saxlayır.

Likvidliyin idarə olunmasına Palatanın yanaşması mümkün qədər həm normal, həm də çətin şəraitdə qəbul edilməz zərərlər çəkmədən və ya Palatanın nüfuzuna xələl gətirmədən öz öhdəliklərini yerinə yetirmək üçün kifayət qədər likvidliyi təmin etməkdir.

Maliyyə öhdəliklərinin ödəmə müddətlərinə görə təhlili aşağıdakı cədvəldə göstərilir:

| *31 dekabr 2018-ci ildə* | *Tələb edilənədək və ya 1 aydan az* | *1-3 ay ərzində* | *3-12 ay ərzində* | *12 aydan çox* | *Cəmi* |
|---|---|---|---|---|---|
| **Öhdəliklər** | | | | | |
| Kreditor borcları | 237 | – | – | – | **237** |
| **Cəmi gələcək ödənişlər** | **237** | **–** | **–** | **–** | **237** |

| *31 dekabr 2017-ci ildə* | *Tələb edilənədək və ya 1 aydan az* | *1-3 ay ərzində* | *3-12 ay ərzində* | *12 aydan çox* | *Cəmi* |
|---|---|---|---|---|---|
| **Öhdəliklər** | | | | | |
| Kreditor borcları | 69 | – | – | – | **69** |
| **Cəmi gələcək ödənişlər** | **69** | **–** | **–** | **–** | **69** |

## 15. Maliyyə alətlərinin ədalətli dəyəri

Maliyyə aktivləri və öhdəliklərinin ədalətli dəyəri, onların qısamüddətli olduğunu nəzərə alaraq, təxminən həmin aktiv və öhdəliklərin balans dəyərinə bərabərdir.

1 yanvar 2018-ci il tarixindən əvvəlki dövrlərə tətbiq edilən uçot siyasətləri

31 dekabr 2017-ci il tarixində başa çatan müqayisəli dövrə tətbiq edilən və BMHS 9 və BMHS 15-ə uyğun olaraq dəyişdirilən uçot siyasətləri aşağıda göstərilir.

**Maliyyə aktivlərinin təsnifləşdirilməsi**

Maliyyə aktivləri aşağıdakı kateqoriyalara təsnifləşdirilir: (a) kreditlər və debitor borcları; (b) satıla bilən maliyyə aktivləri; (c) ödəniş tarixinədək saxlanılan maliyyə aktivləri və (d) FVTPL kateqoriyasında qiymətləndirilən maliyyə aktivləri. FVTPL kateqoriyasında qiymətləndirilən maliyyə aktivləri iki alt-kateqoriyaya bölünür: (i) ilkin tanınma zamanı bu kateqoriyaya aid edilmiş aktivlər və (ii) ticarət üçün maliyyə aktivləri.